**Aysel Ədalət qızı MÜSEYİBOVA**
Bakı Dövlət Universiteti, bakalavr tələbəsi, Bakı, Azərbaycan
E-mail: museyibovaaysel72@gmail.com
ORCID ID: 0009-0007-0707-4247

# İCTİMAİ SAHƏ VƏ NƏZARƏT: HANNA ARENDT VƏ MİŞEL FUKONUN FƏLSƏFƏSİNDƏ AZADLIQ PROBLEMİ

**Xülasə**

Modern fəlsəfi diskursda azadlıq anlayışı, sadəcə hüquqi-siyasi mexanizmlərin toplusu deyil, həm də subyektin məkan və struktur daxilindəki mövqeyini göstərən fundamental problemdir. Bu məqalədə XX əsrin siyasi və sosial fəlsəfəsinin gedişatını dəyişdirən iki monumental mütəfəkkirin, Hanna Arendt və Mişel Fukonun azadlıq anlayışlarını müxtəlif mövqelərdən, daxili şüurun muxtariyyəti, subyektin yenidən inşası, hakimiyyət və azadlığın əlaqələndirilməsi kontekstində müqayisəli formada analiz edilir. Hanna Arendt azadlığı insanların birgə fəaliyyət göstərdiyi ictimai məkanda olduğunu qeyd edir. Fərd, bərabər şərtlərdə qarşılaşdığı, fərqlilikləri ilə birləşən insan kollektivləri ilə ictimai məkanda fəaliyyət göstərdikdə azadlığını qorumuş olur. Mişel Fuko lokal mövqedən yanaşaraq bu düşüncəni illuziya adlandırır. Cəmiyyətdə hakimiyyətin nüfuz etmədiyi heç bir sosial və ictimai sahə yoxdur. Məktəblər, həbsxanalar, fabriklər və xəstəxanalar insanları standartlaşdırılmış bir qəlibə salır. Məsələn, itaətkar tələbə, yəni göstərilən normalardan kənara çıxmayan, tabe olan fərd nəzərdə tutulur. Arendt üçün subyekt yeni başlanğıc edə bilmək potensialına malik olan canlıdır. Fərdin azadlığı onun daxilində deyil, siyasi meydanda kollektiv formada fəaliyyət göstərdikdə mövcud olur. Bu zaman siyasi mənada yenidən doğulur. Lakin Fukonun fəlsəfəsində subyektin azadlığı, fərd nəzarət mexanizmlərini dərk edib, onlara qarşı mübarizə aparan zaman, siyasi cəhətdən mövcud olur.

**Açar sözlər:** azadlıq, diskurs, güc, hakimiyyət, nəzarət.

**UOT:** 1:321.01
**DOI:** https://doi.org/10.54414/IVDP4842

## Giriş

XX əsrdə yaşanan totalitarizm meyilləri, texnoloji nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və sosial normaların genişlənməsi, radikal formada yenidən təhlil edilmişdir. Bu təhlil iki fərqli mövqedən, Hanna Arendt və Mişel Fukonun mövqeyindən şərh edilmişdir. Hər iki mütəfəkkir müasir cəmiyyətin insanı ram edən böhranlarına kəskin şərh versələr də, fərdin bu təzyiqlərdən necə xilas olacağı və azadlığı hansı müstəvidə axtarmalı olduqları sualına əks mövqedən yanaşmışlar. Mütəfəkkirlər azadlığı məkanla əlaqələndirib və bu məkana uyğun müqavimət metodlarını qeyd edirlər. Bu kontekstdə lokal və ictimai məkan formaları toqquşur.

Hanna Arendt fəlsəfəsində azadlıq, fərdin təkbaşına və ya öz daxili dünyasında əldə edə biləcəyi bir status deyil, kollektiv bir reallıqdır. Azadlıq insanların bərabər şərtlərdə qarşılaşdığı, nitq və əməl vasitəsilə öz unikal identikliklərini nümayiş etdirdikləri ictimai məkandır. Hakimiyyət və güc bir-birini tamamlayan anlayışlardır. Güc heç vaxt tək bir fərdə aid ola bilməz. O, ancaq bir araya gələn icmaya, vətəndaşlar qrupuna və kollektivə məxsusdur. Gücün bitdiyi yerdə zorakalıq başlayır, bu isə azadlıq anlayışı ilə ziddiyyət təşkil edir. Zorakılıq bir fərdin və ya azlığın, çoxluğu ram etmək üçün istifadə etdiyi texniki-mexaniki məcburetmə formasıdır. Zorakılıq ictimai məkanı məhv edir və insanları bir-birindən izolyasiya edir. Hər yeni doğulan insan yeni bir başlanğıc etmək qabiliyyətinə malikdir. Yeni başlanğıc isə yeni

ideologiyadır. Fərd siyasi mühit daxilində fəaliyyət göstərdikdə siyasi cəhətdən yenidən doğulur. Fərd, ancaq şəxsi maraqlarını və qorxularını bir kənara qoyub, ictimai arenaya addım atdığı andan etibarən həqiqi siyasi subyektə çevrilir. Arendt üçün subyekt, öz hərəkətlərinin məsuliyyətini daşıyan, digər vətəndaşlarla bərabər münasibət quran vətəndaş modelidir. Azadlıq insanın daxilində deyil, ictimai məkanda hərəkətə keçən zaman yaranır. O, şüurda daxili bir vəziyyət deyil, xarici dünyada, digər insanlarla birlikdə icra edilən birgə fəaliyyətdir. İnsanların fərqlilikləri ilə birləşdikləri məkan ortaq dünyadır. Fərd öz ehtiyaclarından imtina edib, əqidəsi uğrunda mübarizə apardığı zaman fəaliyyət göstərmiş olur. Bu mübarizə çox zaman inqilab yolu ilə baş verir. Lakin inqilab zamanı siyasi məqsədlər yerinə, şəxsi ehtiyaclar meydana gələrsə, o zaman azadlığın reallaşa biləcəyi məkan mövcud olmayacaq. Uğursuz inqilabların nəticəsi, yenidən yaradılmış totalitar cəmiyyətlərdir. Totalitarizm fərdi, sistem daxilində “dişli çarxa” çevirən bir sistemdir. Fərd öz əməllərini yalnız düşünmədən edilən itaətdə görsə də, itaət etmək sistemi qəbul etməkdir.

Mişel Fuko fəlsəfəsində isə Arendtin şərh etdiyi azadlıq məkanı (ictimai məkan) rədd edilir və böyük bir illuziya hesab edilir. Cəmiyyətdə hakimiyyətin nüfuz edə bilmədiyi hər hansı bir məkan yoxdur. Modern cəmiyyətlərdə hakimiyyət kapliya damarlar kimi bütün sahələrə nüfuz etmişdir. Məktəblər, fabriklər, xəstəxanalar, həbsxanalar və elmi instutlar hakimiyyət tərəfindən ələ keçirilib, insanları idarə edir. İdarə olunan insan artıq nəzarət olmadıqda belə daxilən özünü nəzarət içərisində hiss edir. Fuko bunu “panoptikon” cəmiyyəti adlandırmışdır. Fərd normalar tərəfindən hər gün sıxışdırıldığı üçün artıq nəzarət olmadıqda, sanki, kimsə tərəfindən izlənilir. Bu isə azadlığın məhvinə gətirib çıxarır. Azadlıq, fərdin içərisində olduğu vəziyyəti dərk edib, ona verilən identiklikdən imtina etdiyi zaman yaranır. İnsan daxilən azad olmalı, sonra siyasi formada fəaliyyət göstərməlidir. Hakimiyyət yalnız fərdi qəlibə salan bir sistemdir. Buna görə də, hakimiyyət olan hər yerdə müqavimətdə vardır. Bu fundamental fərqliliklərdən çıxış edərək, hər iki filosofun azadlığa dair baxışlarını şərh etmək olar.

**Hanna Arendt fəlsəfəsində azadlıq və ictimai sahə.** Hanna Arendtin siyasi düşüncəsində azadlıq, fəlsəfə tarixinin klassik “azadlıq” anlayışından fərqlənmişdir. Azadlığın harada və hansı şərtlər daxilində təzahür etdiyini Arendt “vita-activa” (fəal həyat) təsnifatı vasitəsilə interpretasiya edir. Müəllif burada 3 əsas insan fəaliyyətini əmək (labor), iş (work) və fəaliyyət (action) ayırd edir. Əmək, insanın bioloji varlığını davam etdirməsi üçün zəruri fəaliyyətdir. “Yoxsulluq ehtiyacın və bədbəxtliyin davam etməsidir. Yoxsulluq, insanı bədəninin mütləq diktələrinə tabe edir. Fransa inqilabına kömək etmək üçün tələsən və onu dirçəldən lakin onu pis sonluğa məhkum edən məhz belə bir zərurətin hakimiyyəti altında olan yoxsullar izdihamı idi. Onlar siyasi səhnəyə çıxdıqda, zərurətdə onlarla birlikdə peyda oldu.” [1, s.76]. Belə nəticəyə gəlmək olar ki, azadlıq zərurətin ziddidir. İş, bütün təbii mühitlərdən fərqli olaraq “süni” bir predmetlər dünyasını təşkil edir. Onun sərhədləri daxilində hər bir fərd həyat yaşayır. Lakin fəaliyyət əşyaların və ya maddənin vasitəçisi olmadan insanlar arasında birbaşa baş verən, yer üzündə “insanın” deyil, “insanların” yaşadığı faktına uyğun gəlir.

Fəaliyyətin baş verməsi üçün mütləq şəkildə müvafiq bir məkanın olması (ictimai sahə - public realm) zəruridir. Arendt bu sahənin birləşdirici və fərqləndirici mahiyyətini özünün məşhur “masa” metaforasında göstərmişdir. Burada masa ortaq dünyanı ifadə edir və onun ətrafında oturan insanların vəziyyəti isə ictimai sahədir. Əgər masa aradan qalxarsa, yəni ortaq dünya yox olarsa, insanlar ya bir-birindən tamamilə qopar, ya da bir-birinin içində əriyib kütləyə çevrilər. İnsanlar ictimai sahəyə olan marağını itirsələr, azadlıqlarını nümayiş etdirə biləcəkləri bir meydan qalmayacaq. Arendtə görə, ictimai sahənin itirilməsi dünyasızlığa gətirib çıxarır. Bu isə kollektivin ortaq məkandan qopmasına, hər kəsin öz daxili dünyasına məhkum edilməsi ilə nəticələnir. Azadlıq daxili dünyamızdan çıxıb, kollektiv fəaliyyət göstərdiyimiz zaman reallaşır. O bu ifadə ilə vurğulamışdır

ki, "vətəndaş itaətsizliyi ortaq məqsəd naminə birlikdə olan vətəndaşların kollektiv fəaliyyətidir. Buna görə də, vətəndaş itaətsizliyi azlıqların ictimai məkanda azadlığlarını yenidən əldə etməsi üçün apardığı mübarizədir." [2, s.65]. Arendt ictimai sahə ilə yanaşı görünüş məkanı (space of appearance) ideyasını irəli sürmüşdür. Görünüş məkanı insanların birgə fəaliyyət göstərdiyi yerdə yaranır. Güc (power) isə ictimai aləmi, hərəkət edən və danışan insanlar arasında potensial görünüş məkanının mövcudluğunu davam etdirir. Arendtin siyasi fəlsəfəsində güc anlayışı, klassik siyasi nəzəriyyələrdə mövcud olan gücdən kəskin formada fərqlənir. Belə ki, onun qeyd etdiyi güc anlayışı kollektiv bir potensial kimi xarakterizə olunur. "Güc heçvaxt fərdin mülkiyyəti deyil, o bir qrupa məxsusdur və yalnız qrup birlikdə olduğu müddətdə güc mövcud olur." [3, s.44]. Arendt güc və zorakılıq anlayışlarını fərqləndirirdi. Zorakılğın mövcud olması ictimai sahədəki ünsiyyətin zəifləməsinə gətirib çıxarır və nəticədə zorakılığın mövcudluğu azadlığın mövcudluğunu istisna edir. Lakin zorakılıq gücü formalaşdıra bilmir. Azadlıq və güc bir-birini tamamlayan anlayışlardır, çünki azadlıq yeni bir başlangıcdırsa, güc həmin başlanğıcı davam etdirməkdir.

Arendt fəlsəfəsində azadlıq və siyasət anlayışları ayrılmaz formada təhlil olunur. Azadlıq yalnız insanların siyasi cəhətdən bağlandığı bir məkanda mövcud ola bilər. O insanları məcbur edən bir vasitə deyil, ünsiyyət və fəalliyyət prosesi kimi qiymətləndirilir. "Siyasətin mahiyyəti azadlıq, azadlığın təcrübə sahəsi isə hərəkətdir." [4, s.199]. Əgər kimsə dünyanı həqiqətən olduğu kimi görmək və yaşamaq isdəyirsə, bunu yalnız bir çox insanın başa düşə biləcəyi, bir-birilərilə qarşılıqlı mübadilə edə biləcəyi bir şəraitdə edə bilər. Həmçinin o bu ifadə ilə qeyd etmişdir ki, "siyasət insanların çoxluğu faktına əsaslanır. Tanrı insanı yaratdı, lakin insanlar bəşəri, dünyəvi məhsuldurlar." [5 s.93]. Artıq burada nə yeyəciyik? necə sağ qalacayıq? suallarını deyil, necə bir dünyada qalacayıq sualını verirdilər.

Arendt fəlsəfəsində daha mühüm bir məsələ totalitarizm olmuşdur. O bu sistemi kəskin formada tənqid etmiş və insan azadlığını məhdudlaşdıran siyasi bir sistem olduğunu qeyd etmişdir. "Totalitar hərəkatlar dünyanı fəth etməyə və hər an insanları qəlibə salmağa çalışırlar." [6, s.429]. Burada insanların nə azad fəaliyyət göstərə biləcəkləri bir məkan, nə də azadlıqlarını ifadə edə biləcəkləri bir düşüncə formalaşa bilər. Azadlıq dövlətin deyil, yalnız insanların birliyi zamanı yarana bilər və totalitarizm isə bu birliyi məhv edən əsas amildir. Arendt bu sistemin mənfi nəticələrini izah edərkən "Şərin adiliyi: Adolf Eyxman Qüdsdə" əsərində Adolf Eyxman obrazını nümunə kimi göstərmişdir. Bu obraz şər niyyətli biri kimi deyil, ona verilən əmrləri sorğulamadan yerinə yetirən və öz hərəkətinin nəticələrini düşünə bilməyən bir məmur idi. İnsan düşünməyi və mühakimə etməyi buraxdığı an, hətta cinayətkara belə çevrilə bilər. Siyasətdə itaət etmək həmin sistemi dəstəkləməkdir və bu dəstək insanlığı fəlakətə sürükləyən bir amilin bariz nümunəsinə çevrilir. Arendt, Eyxmanın nitqi ilə bunu ifadə etmişdir ki, mən sadəcə dövlət mexanizminin içindəki kiçik dişli çarx idim. Qərar verən deyil, sadəcə icraçı idim. Sistem insanların şəxsi düşüncə imkanlarını zəiflədən və yalnız qorxu ilə idarə olunan sistemdir. O, belə qeyd etmişdir ki, "onun dövrün baş cinayətkarlarından birinə çevrilməsinə şərait yaradan şey düşüncəsizlikdən başqa bir şey deyil." [7, s.378]. Digərlərindən fərqləndirən cəhəti isə qeyd-şərtsiz sədaqətdir. Belə ki, fərd cəmiyyətdən tamamilə təcrid olunmuş formada, hətta ailəsi, yoldaşları ilə sosial əlaqəsi olmadan fəaliyyət göstərməlidir. Bu isə yalnız diktaturadır. Arendtin "İnsan vəziyyəti" əsərində qeyd olunur ki, "Seneka imperator Romasından nəql etdiyi bir hekayədə, sadəcə ictimaiyyət qarşısında görünməyin nə qədər təhlükəli olduğunu göstərmişdir. O dövrdə kölələrin azad vətəndaşlardan fərqlənə bilməsi üçün ictimai yerlərdə vahid geyimdə olması təklifi irəli sürüldü. Təklif çox təhlükəli hesab edilərək rədd edildi, çünki kölələr bir-birini tanıya və potensial güclərindən xəbərdar ola bilərdilər." [9, s.218]. Bu isə onu göstərir ki, insanın öz gücünü dərk etməsi onun azadlıq anlayışının formalaşmasına gətirib çıxarır.

Beləliklə, totalitarizmin yaratdığı məhdudiyyətlər inqilablara səbəb olur. İnqilablar tarixdə, insanların öz azadlıqları uğrunda sistemə verdikləri reaksiya kimi ortaya çıxır. Məqsəd sadəcə köhnə rejimi yıxmaq deyil, azadlığı yenidən inşa etməkdir. Lakin bu hər zaman uğurla nəticələnmir. Belə ki, bəzi hallarda insanlar zərurətə qapılıb, öz əqidələrini unudurlar. Bu isə başqa bir fəlakətə, yəni yeni bir rejimin yaranmasına gətirib çıxarır. İnsanlar öz hüquqlarını müdafiə etmək üçün mütəşəkkil şəkildə birləşirlər, lakin bəzən bu birləşmə mənfi nəticə ilə sonlana bilər. Onun bu fikri ilə razılaşmaq olar ki, "biz hüquqlara sahib olmaq hüququnu və mütəşəkkil bir cəmiyyətə aid olmaq hüququnun mövcudluğunu yalnız o zaman dərk etdik ki, bu hüquqları itirən və yeni qlobal siyasi vəziyyət ucbatından onları yenidən qazana bilməyən milyonlarla insan ortaya çıxdı." [8, s.297]. Zərurətdən azad olmuş yerlərdə inqilablar müsbət nəticələnir, çünki onlar bioloji və fizioloji ehtiyacları uğrunda deyil, öz "həqiqi" azadlıqları uğrunda mübarizə aparırlar. Arendtin fikrinə görə, "inqilablar heç vaxt siyasi hakimiyyətin süqutunun səbəbi deyil, əksinə, onun nəticələridir. İnqilabların itirilmiş xəzinəsi insanların birbaşa iştirak etdiyi yerli şuralardır ki, onlar partiya bürokratiyası tərəfindən boğulmuşdur." [1, s.205].

Hanna Arendt fəlsəfəsində daha mühüm bir məqam isə "yeni başlanğıc" ideyasıdır. Hər bir insanın doğulması bir başlanğıc aktıdır. İnsan yeni bir şey yaratmaq və mövcud reallığı dəyişmək potensialına sahib olan varlıqdır. "Dünyaya yeni gələn şəxs tamamilə yeni bir şey başlatmaq qabiliyyətinə sahibdir." [9, s.9]. Totalitar rejimlər insan fəaliyyətini məhdudlaşdırsa da, onun yeni şeylər yaratmaq gücünü tamamilə əlindən ala bilməz. İnqilab isə burada insanların azadlıq uğrunda mübarizəsinin başlanğıcı kimi çıxış edir. Bu ideya azadlıq anlayışı ilə sıx bağlılıq təşkil edir, çünki insa azad olduğu zaman yeni siyasi imkanlar yarada bilər. Kollektiv azadlıq isə insanların birgə bu yeni başlanğıcı reallaşdırmasıdır.

**Mişel Fuko: hakimiyyət və nəzarət.** Mişel Fuko fəlsəfəsində azadlıq anlayışı ənənəvi fəlsəfədən bir qədər fərqlənir. Müasir cəmiyyətdə hakimiyyət qanunlar çərçivəsində fəaliyyət göstərmişdir. Hakimiyyət cəmiyyətin bütün sferalarına yayılmış, insanların gündəlik həyatını və davranış formalarını sistem halına gətirmişdir. Sistem insanın ruhunu və bədənini qəlibə salan bir zavoda bənzəyir (məktəb, həbsxana, xəstəxana bizi eyniləşdirir). Əvvəllər hakimiyyət müəyyən olunmuş cəzalar formasında özünü göstərirdisə, artıq müasir cəmiyyətlərdə nəzarət və intizam mexanizmləri ön plana çıxmışdır. İnsanlar özlərini azad hesab etsə də, əslində müasir dövrün elm sistemləri tərəfindən müəyyən bir qəlibə salınmışdır. Bu vəziyyət "normallıq" anlayışı altında hökm sürür. Normallıq insanları müəyyən olunmuş standartlara tabe olan bir varlığa çevirir. Kim bu normallıqdan kənara çıxarsa, o sistem tərəfindən düzəldilməli olan bir hədəfə çevrilir. Fuko qeyd edir ki, "Normallıq modern cəmiyyətin yeni qanunudur. Normallaşdırma nəzarət kimi hakimiyyətin böyük alətlərindən birinə çevrilmişdir." [10, s.231]. Azadlıq isə sistemin verdiyi kimliyi, məsələn, normal vətəndaş, itaətkar tələbə kimi anlayışları rədd edib, özünü yenidən icad etməkdir. Bu sistemin içərisində əriyən insanlar zaman keçdikcə, xarici nəzarət olmadan daxili nəzarət formasına keçid edirlər. Fuko bu prosesi izah etmək üçün "panoptikon" modelinə müraciət etmişdir. Fərd daim nəzarət altında olduğunu hiss etdiyi üçün, artıq "yeni bir şey" yaratmaq əvəzinə, ona diktə olunan "normalara" uyğun davranır. Bu halda hakimiyyət görünməz, lakin daha effektiv formada olur. İnsan özünü azad hesab etsə də, o sistem tərəfindən formalaşmış, zahirən özünü azad hesab edən, lakin daxildən sosial normalara uyğun hərəkət edən "insan" olmuşdur. Azadlığın ən böyük düşməni daimi izlənilmə hissidir. Bu hiss insanı müəyyən məhdudiyyətlər çərçivəsində fəaliyyət göstərməyə sövq edir. Belə olduqda, azadlıq daxili nəzarət mexanizmləri tərəfindən boğulur. Fərd artıq azadlığını itirdiyi zaman, siyasi meydanda sistemin onun üçün yaratmış olduğu yol ilə gedir. Fuko fəlsəfi ənənədə tez-tez rast gəlinən "ruh bədənin həbsxanasıdır" fikrindən fərqli bir mövqedən çıxış etməkdədir. Burada başlıca problem bədənin sosial və intizam mexanizmləri vasitəsilə idarə

olunması, itaətdə saxlanılmasıdır. Buna görə də, azadlıq bədənin tam sərbəstliyi deyil, onun üzərindəki nəzarət mexanizmlərinin dərk edilməsidir.

Hakimiyyət sabit və mütləq deyil, o daim müxtəlif formalarda müqavimətlə qarşılaşır. Müqavimət bəzən açıq şəkildə etiraz və ya üsyan formasında özünü göstərsə də, çox vaxt gündəlik həyatın içərisində, fərdi seçimlər şəklində meydana çıxır. İnsanlar hər zaman mövcud sistemə uyğunlaşmır, öz çıxışları vasitəsilə sistemə qarşı gələrək, ona uyğunlaşmır. Hakimiyyət yalnız yuxarıdan aşağıya doğru məcburetmə ilə izah oluna bilməz. O, eyni zamanda, aşağıdan yuxarıya doğru yaranan reaksiyalar əsasında formalaşır. Azadlıq sistemin xaricində bir yer deyil, sistemin içərisində ona qarşı göstərilən müqavimətdir. Sistemə qarşı müqavimət göstərib, öz mövqeyimizi ifadə etdiyimiz zaman, azadlıq haqqında danışa bilərik. Fərd intizam mexanizmlərindən qurtulmayıb, ona itaət etdiyi zaman bu rejimin standartlaşdırılmış "köləsinə" çevrilir. Müəllif belə qeyd edir ki, "hakimiyyət olduğu yerdə müqavimətdə vardır." [11, s.73]. Azadlıq insanı qəfəsə salan düşüncə mexanizmlərindən xilas olmaqdır. O sabit bir "azad vəziyyət" deyil, daim dəyişən və hakimiyyət münasibətləri daxilində formalaşan bir prosesdir. Bu münasibətləri dərk etdikdə və ona qarşı tənqidi mövqe tutduqda, azadlıq real bir məna qazanır. Sistemə itaət etməyin nəticəsi isə "göstəriş" xarakterli işgəncələrə gətirib çıxarır. Baş verən zorakılıq formaları fərdi cəzalandırmaq üçün deyil, hakimiyyətin öz gücünü nümayiş etdirməsidir. Belə ki, bu cür cəza üsulları ilə xalq üzərində qorxu yaradıb, cəmiyyətdə davranış normalarını tənzimləyirlər. Bu isə azadlıq anlayışını daha mürəkkəb hala gətirir. İnsan bu zaman yalnız hüquqi qanunlara deyil, eyni zamanda, qorxu ilə idarə olunur. Bədən, hakimiyyətin təsdiqlənilməsi üçün bir vasitə roluna çevrilir. Məqsəd fərdi məhv etmək deyil, cəmiyyəti itaətdə və intizamda saxlamaqdır. Fukonun fikrinə əsasən belə bir nəticəyə gəlmək olar ki, işgəncənin həddindən artıq olmasında bütöv bir güc iqtisadiyyatı gizlənir.

Cəmiyyətdə "doğru" və "yanlış" anlayışları təbii formada yaranmır. O müxtəlif instutlar tərəfindən istehsal olunur. Bilik, hakimiyyətin həyata keçirilməsi üçün vasitə rolunu oynayır. Məsələn, psixologiya, kriminologiya kimi elmlər insanları "normal" və "anormal" olmaqla 2 qrupa ayırır. Kimin normal və ya anormal olduğuna isə hakimiyyət qərar verir. Məktəb, universtet, media kimi sistemlər insanlara müəyyən biliklər təqdim edir və bu biliklər vasitəsilə onların davranışlarını istiqamətləndirir. Fuko belə qeyd etmişdir ki, "bilik və hakimiyyət bir-birini qarşılıqlı formada artırır və qidalandırır. Hər bir bilik sahəsi, müəyyən bir hakimiyyət mexanizminin tətbiqi və funksiyasıdır." [12, s.292]. Standart rejimə uyğunlaşan insan, artıq daxilində öz düşüncələrini sıxışdırıb, sosial normalara itaət edərək müəyyən qəlibə düşür. Bu da o deməkdir ki, sistem fərdin yalnız bədəninə və ya gündəlik həyat tərzinə deyil, eyni zamanda, onun ruhuna və düşüncə tərzinə təsir edir. Bu təsir altına düşmüş insanın yeganə çıxış yolu, bu sistemi dərk edib, ondan imtina etməkdir. Elm, hər nə qədər də, yeni birşey yaratmaq, kəşf etməkdirsə, əslində o, sistemin "görünməz əli" kimi çıxış edir. Belə ki, elmi fəaliyyətlərdə tələbələr, şagirdlər yalnız mövcud olan nədirsə, ona uyğunlaşaraq öyrənib, tətbiq edirlər. Onların düşüncə tərzi məhdud çərçivə daxilində formalaşır. Bu isə azad düşüncənin sıxışdırılmasına gətirib çıxarır. Əgər fərd bu sistemdən kənara çıxıb, öz azadlığını naminə müəyyən fəaliyyətləri yerinə yetirib, öz etirazlarını açıq şəkildə bəyan edərsə, o zaman azadlıq real olaraq mövcud olar.

**Azadlığın müqayisəli təhlili: H.Arendt və M.Fuko.** Hanna Arendt və Mişel Fukonun azadlıq anlayışlarını müqayisə edərkən qarşılaşdığımız fundamental fərqlərdən biri, ictimai məkan və lokal müqavimət formasıdır. Arendt üçün azadlıq fərdin daxili dünyasında deyil, o dünyadan kənara çıxıb, ictimai məkanda fəaliyyət göstərərək mövcud olur. İnsanların bir-biri ilə bərabər şərtlərdə qarşılaşdığı, danışdığı və ortaq hərəkət etdiyi bir məkanda azadlıq meydana çıxır. İctimai məkan fərdlərin hərəkət və fəaliyyətləri ilə özlərini bəşəriyyətə nümayiş etdirdikləri

azadlıq səhnəsidir. Bu səhnə fərdin bioloji və məişət qayğılarından uzaq, tamamilə azadlıq naminə yaranan birlikdir. Əgər fərd siyasi səhnədə öz əqidəsini unudub bioloji və fiziki ehtiyaclarına yönələrsə, o zaman azadlıq məhv olar. Mişel Fuko isə buna bir qədər fərqli yanaşır. O Arendtin təsvir etdiyi "azad və bərabər hüquqlu ictimai məkan" anlayışını illuziya hesab edir. Hakimiyyət mərkəzi bir nöqtə deyil, cəmiyyətin bütün sferalarına, eləcə də məktəb, həbsxana, xəstəxanalara nüfuz etmişdir. Azadlıq bədənin, arzuların, hisslərin idarə olunma formalarına qarşı göstərilən müqavimət zamanı reallaşır.

Azadlıq anlayışındakı digər fərq, onların hakimiyyətə qarşı olan münasibətləridir. Hanna Arendt fəlsəfəsində hakimiyyət anlayışı zorakılıqdan fərqlənir. Bir çox mütəfəkkirlər hakimiyyət haqqında danışarkən onun, birinin digəri üzərində qurduğu təzyiq kimi göstərirlər. Arendt isə buna fərqli yanaşaraq, hakimiyyətin pozitiv və kollektiv bir qüvvə olduğunu qeyd etmişdir. Zorakılıq hakimiyyətin bitdiyi yerdə başlayır. Azadlıq və hakimiyyət bir-birinə zidd deyil, əskinə, bir-birinin mövcudluğunun şərtidir. İnsanların ortaq gücü, yəni hakimiyyəti olmadan azadlığı qoruyacaq siyasi struktur qurula bilməz. Fuko isə hakimiyyəti kollektiv birlik kimi deyil, insanları qəlibə salan sosial sistem olaraq görür. "Həbsxanaın Doğuşu" əsərində təhlil edildiyi kimi, hakimiyyət artıq zorakılıqdan deyil, bədənləri məhv edən nəzarət üsullarında ibarətdir. Panoptikon modelində olduğu kimi, fərd daim nəzarət altında olduğu üçün, nəzarət olmadıqda öz daxili nəzarəti başlayır. Bu isə fərdin bütün düşüncələrinə, hisslərinə təsir edərək, onu standart formaya salır. Azadlıq bu zəncirləri qırıb daxilən ona qalib gəlməkdir.

Arendt subyekt anlayışını onun fəlsəfəsinin başlıca mövzusu olan "doğulma" anlayışı ilə əlaqələndirir. Bir insan doğulduqda, artıq dünyaya tamamilə yeni və unikal başlanğıc gəlir. İnsan sadəcə bioloji olaraq doğulmur, o ictimai məkana çıxıb fəaliyyət göstərdiyi zaman siyasi olaraq yenidən doğulur. Bu subyekt hərəkətə keçən, təşəbbüs göstərən, aktiv və qurucu fərddir. Fukonun fəlsəfəsində isə subyekt heç də, belə suveren və azad başlanğıca malik deyil. Fukonun qeyd etdiyi subyekt, intizam mexanizimləri və elm sistemləri tərəfindən "istehsal olunan" bir varlıqdır. Klinika, psixatiriya xəstəxanaları kimi yerlər insanları "dəli" və ya "ağıllı" olduğunu qeyd edir. İnsanların özü haqqındakı biliklər, bu sistemlərin məhsuludur. Bəs belə bir subyekt necə azad ola bilər? Azadlıq hakimiyyət mexanizmlərinin və sosial sistemlərin bizə verdiyi kimliyi rədd etməkdir. Subyekt mövcud vəziyyəti dərk edib, ondan imtina edərsə, o tam mənada azad olur. Müqayisənin digər mühüm aspekti, azadlığın "zaman" daxilində necə mövcud olmasıdır. Arendt üçün azadlıq, tarixin müəyyən parlaq qırılma anlarında, xüsusi siyasi şərtlər daxilində büruzə verir. Tarixdə baş vermiş inqilablar azadlığın siyasi məkanda olduğunu sübut etmişdir. İnsanlar qəfil sıçrayış etməsi nəticəsində, tarixin axınını dayandırıb, özlərinə unikal məkan yaradıblar. Azadlıq qorunmalı və gələcək nəsillərə ötürülməli olan qiymətli bir siyasi mirasdır. Lakin diqqət yetirməli olunan əsas məqam odur ki, insanlar siyasi meydana çıxdıqda, onlarla birlikdə bioloji və fiziki ehtiyaclarıda çıxarsa, o zaman bu sıçyarış tez sönür. Əvəzində isə daha despotik və totalitar rejim yaradılır. Fukonun azadlığın zaman haqqındakı fikirləri dinamik xarakter daşıyır. Hakimiyyət, fərdin üzərində hər saniyə, hər an məktəbdə oxuyarkən, xəstəxanada müalicə olunarkən, hətta arzulayarkən belə işlədiyi üçün, azadlıq da eyni dərəcədə fasiləsiz, daim bir praktika olmaq məcburiyyətindədir. Azadlıq hər gün hakimiyyətlə girilən strateji oyunlarda icra edilməli olan bir fəaliyyətdir.

**Nəticə**

Nəticə etibarilə, azadlıq iki müstəvidə şərh oluna bilər. Lakin müasir dövrdə həmin iki yanaşma arasındakı uyğunluq tamamilə müəyyənləşməmişdir. İstər ictimai sahənin daxilində mövcud olan azadlıq, istərsə də fərdi azadlıq hələ tamamilə yekdil interpretasiyaya istinad etmir. Subyektin unikallığı digər subyektlərlə onun arasında mövcud olan sosial və siyasi münasibətlərin fraqmentarlığı ilə nəticələnir. Belə ki, subyekt həm Hanna Arendtin qeyd etdiyi kimi sosial əlaqələr vasitəsilə müstəqillik əldə edir, həm də Mişel

Fukonun şərh etdiyi kimi bu sosial əlaqələr nəzdində müstəqilliyini itirir. Məhz bu dilemma qarşısında qalan subyekt müasir dövrdə hansı dünyagörüşünə istinad edə biləcəyini bilmir. Bu baxımdan, müasir dövrdə subyektin sosial və siyasi mahiyyəti fraqmentar və situativ formada şərh edilir, çünki sosial münasibətlər ona həm azadlıq təqdim edir, həm də onu məhdudlaşdırır. Qeyri-müəyyənliyin daxilində mövcudluğunu davam etdirən hər bir fərd qacınılmaz şəkildə qeyri-müəyyən mahiyyəti mənimsəmək məcburiyyətindədir.

## ƏDƏBİYYAT SİYAHISI

1. Arendt H. Devrim üzerine. İstanbul: İletişim Yayınları, 2012.
2. Arendt H. Kamu vicdanına çağrı/sivil itaatsizlik. İstanbul: Ayrıntı Yayınları, 1997.
3. Arendt H. One violence. San Diego: Harcourt Brace Jovanovich, 1970.
4. Arendt H. Geçmişle gelecek arasında: siyasi düşünce konulu altı deneme. İstanbul: İletişim Yayınları, 1996.
5. Arendt H. The promise of politics. New York: Schocken Books, 2005.
6. Arendt H. Formasiyon, sürgün, totalitarizm: anlama denemeleri 1930-1954. Ankara: Dipnot Yayınları, 2014.
7. Arendt H. Kötülüğün sıradanlığı: Adolf Eichman Kudüs’te. İstanbul: Metis Yayınları, 2009.
8. Arendt H. The origins of totalitarianism. Cleveland: The World Publishing Company, 1958.
9. Arendt H. The human condition. Chicago: The University of Chicago Press, 1998.
10. Foucault M. Hapishanenin doğuşu. Ankara: İmge Kitabevi, 1992.
11. Foucault M. Cinselliğin tarihi. İstanbul: Ayrıntı Yayınları, 2003.
12. Foucault M. Kelimeler ve şeyler: insan bilimlerinin bir arkeolojisi. Ankara: İmge Kitabevi Yayınları, 1994.

**Aysel Adalat MUSEYIBOVA**
Bachelor's student at Baku State University, Baku, Azerbaijan

## PUBLIC SPACE AND CONTROL: THE PROBLEM OF FREEDOM IN THE PHILOSOPHY OF HANNA ARENDT AND MISCHEL FOUCAULT

**Summary**

In modern philosophical discourse, the concept of freedom is not merely a set of legal and political mechanisms, but also a fundamental problem that indicates the subject's position within space and structure. This article comparatively analyzes the concepts of freedom of two monumental thinkers, Hannah Arendt and Michel Foucault, who changed the course of twentieth-century political and social philosophy, from the perspectives of the autonomy of inner consciousness, the reconstruction of the subject, and the relationship between power and freedom. Hannah Arendt argues that freedom exists in the public space where people act together. An individual preserves their freedom when they act in a public space together with human collectives that encounter one another under equal conditions and unite through their differences. Michel Foucault, approaching the issue from a local perspective, considers this idea an illusion. There is no social or public sphere in society that is not penetrated by power. Schools, prisons, factories, and hospitals place individuals into a standardized framework. For example, the ideal is an obedient student, that is, an individual who does not go beyond prescribed norms and remains submissive. For Arendt, the subject is a being endowed with the potential to initiate a new beginning. The freedom of the individual does not exist within the self; rather, it exists when individuals act collectively in the political sphere. In this way, they are politically reborn. In Foucault’s philosophy, however, the freedom of the subject exists politically when individuals become aware of mechanisms of control and struggle against them.

**Keywords:** freedom, discourse, power, authority, control.

**Айсель Адалят МУСЕИБОВА**
Бакинский государственный университет, студентка, Баку, Азербайджан

## ОБЩЕСТВЕННОЕ ПРОСТРАНСТВО И КОНТРОЛЬ: ПРОБЛЕМА СВОБОДЫ В ФИЛОСОФИИ ХАННА АРЕНДТ И МИШЕЛЬФУКО

**Резюме**

В современном философском дискурсе понятие свободы представляет собой не просто совокупность правовых и политических механизмов, но и фундаментальную проблему, определяющую положение субъекта в пространстве и структуре. В данной статье в сравнительной форме анализируются концепции свободы двух выдающихся мыслителей, изменивших ход политической и социальной философии XX века, — Ханны Арендт и Мишеля Фуко, в контексте автономии внутреннего сознания, реконструкции субъекта и взаимосвязи власти и свободы. Ханна Арендт утверждает, что свобода существует в публичном пространстве, где люди действуют совместно. Индивид сохраняет свою свободу тогда, когда действует в публичной сфере вместе с человеческими коллективами, встречающимися на равных условиях и объединяющимися благодаря своим различиям. Мишель Фуко, рассматривая проблему с локальной позиции, считает подобное представление иллюзией. В обществе не существует ни одной социальной или публичной сферы, которая не была бы пронизана властью. Школы, тюрьмы, фабрики и больницы помещают людей в стандартизированные рамки. Например, подразумевается послушный ученик, то есть индивид, не выходящий за пределы установленных норм и подчиняющийся им. Для Арендт субъект является существом, обладающим потенциалом начинать новое. Свобода индивида существует не внутри него самого, а тогда, когда он действует коллективно в политическом пространстве. В этом случае он политически возрождается. Однако в философии Фуко свобода субъекта существует в политическом смысле тогда, когда индивид осознаёт механизмы контроля и вступает с ними в борьбу.

**Ключевые слова:** свобода, дискурс, сила, власть, контроль.

**Daxil olub:** 23.06.2026